# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

06 (79) 06 aprel 2017-ci il İctimai-siyasi qəzet


# Respublika Veteranları Niderlandda baş verən hadisələrdən narahatdırlar

***14 mart 2017-ci il tarixində Respublika Veteranlar Təşkilatı Rəyasət Heyətinin növbəti iclası keçirilmişdir. İclasda Respublika Veteranlar Təşkilatının (RVT) 6-cı Plenumundan ötən dövr ərzində Təşkilatın fəaliyyəti barəsində RVT-nin sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov məruzə ilə çıxış etmişdir.***

***Rəyasət Heyətinin növbəti iclasının gündəliyinə uyğun olaraq daha bir neçə məsələ müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir.***

***İclasda həmçinin veteranlar son zamanlar Niderlandda dini və milli ayrı-seçkilik zəminində baş verən hadisələrdən narahat olduqlarını ifadə etmiş və bununla əlaqədar Azərbaycan Veteranları adından Niderland hökumətinə müraciət qəbul etmişlər.***

Niderlandda dini və milli ayrı-seçkilik zəminində baş verən hadisələrlə əlaqədar Azərbaycan veteranlarının Niderland hökumətinə

***Müraciəti***

Niderlandda son günlər dini və milli ayrı-seçkilik zəminində baş verən hadisələr insanlıq və humanizmlə bir araya sığmır. Özünü Avropanın humanist, tolerant və insan hüquqlarının təminatçısı kimi göstərən bir ölkədə belə hadisələrin baş verməsi dünyanın harasında törədilməsindən asılı olmayaraq, hadisələrə obyektiv yanaşan insanlar kimi biz Azərbaycan veteranlarını da ciddi narahat edir. Biz veteranlar Niderlandda yaşayan türk icmasının sərbəst və dinc toplaşmasına imkan verilməməsini, onlara qarşı güc tətbiq edilməsini, eləcə də Niderland hökümətinin Türkiyə hökumət rəsmilərinə qarşı həyata keçirdiyi tədbirləri qərəzli və ziddiyyətli hesab edirik. Bütün bunlar daim bəyan olunan Avropa və ümumən insanlıq dəyərlərinə ziddir.

Qədim qitənin inkişaf etmiş bir ölkəsində dini dözümsüzlük, irqi və milli ayrı-seçkilik zəminində yolverilməz hərəkətlərin törədilməsi yalnız acı təəssüf hissi doğurur. Digər tərəfdən, bu hadisələri iki ölkə arasında siyasi böhrana səbəb olan siyasət kimi qiymətləndirir, düşünülməmiş addımlardan məyus olduğumuzu bildiririk.

Biz xalqımızın tarixən tolerantlığı, sülhsevərliyi ilə seçilməsini fəxrlə qeyd edir, özünü demokratiya nümunəsi hesab edən ölkələrin Azərbaycanın bu gün vətəndaş həmrəyliyi sahəsində həyata keçirdiyi siyasətdən, xüsusilə ölkəmizdə dini, milli və irqi ayrı-seçkiliklərin tamamilə aradan qaldırılmasından nümunə götürməyə səsləyirik. Niderlandı, eləcə də, bu cür mənfi halların baş qaldırdığı istənilən ölkəni Azərbaycan Respublikasının bu sahədə əldə etdiyi siyasi təcrübədən istifadə etməyə çağırır, yalnız xalqlar arasında dostluğun, insan haqlarına hörmətin bərqərar olduğu ölkələrdə inkişaf və tərəqqinin mümkün olduğunu qeyd edirik.

Biz Avropanı faşizm, şovinizm bəlasından xilas etmək üçün canından, sağlamlığından keçmiş veteranlar olaraq, Avropada sülhün təminatı üçün təhlükə yaradan eyni halların yenidən təkrarlanması təhlükəsindən və hadisələrin siyasiləşdirilməsindən təəssüflənir, tezliklə bütün bunlara son qoyulması üçün ağılın diktəsi ilə tədbirlər görüləcəyinə, Niderland və Türkiyə arasında baş verən siyasi böhranın aradan qaldırılacağına inanırıq.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı
Qüvvələr Veteranları Təşkilatı

# Xalqımızın qəhrəmanlıq salnaməsi olan aprel döyüşləri iftixarla xatırlanır

Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından olan aprel döyüşlərindən bir il ötür. Xalqımızın qəhrəmanlıq salnaməsi olan aprel döyüşləri hər kəs tərəfindən iftixarla xatırlanır, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad edilir. Bu döyüşlər Azərbaycan xalqının birliyinin, dəyanətinin, əyilməzliyinin sübutudur. Bu tarixi döyüşlər, eyni zamanda, Azərbaycan xalqının Qarabağın işğalı ilə heç vaxt barışmayacağını bütün dünyaya göstərdi.

Bu fikri AZƏRTAC-a müsahibəsində Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib.

Cəlil Xəlilov deyib ki, işğalçılara vurulan ağır zərbə onları sarsıdıb. Hətta bir il keçməsinə baxmayaraq, məğlubiyyətin acısı bu gün də Ermənistanın ictimai-siyasi həyatında və hərbi sistemində ciddi çaşqınlıq yaradır. Dolayısı ilə öz məğlubiyyətlərini etiraf etmiş erməni rəhbərliyi döyüşlərdən sonrakı dövrlərdə Azərbaycanın siyasi təzyiqləri ilə üzləşib. İnformasiya müharibəsində də düşməni məğlub etdik. Strateji yüksəkliklərin azad olunması, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpasına başlanması düşmənin həzm edə bilmədiyi məğlubiyyət acısını daha da artırıb. Prezident, Ali Baş Komandan İlham Əliyevin atdığı qətiyyətli addımlar, imzaladığı sərəncamlar xalqımızın qələbə əzmini, doğma torpaqlara böyük qayıdışa inamını gücləndirib.

Respublika Veteranlar Təşkilatının sədr müavini qeyd edib ki, Azərbaycanda şəhid ailələrinə, bütün qəbildən olan veteranlara, müharibə əlillərinə kifayət qədər yüksək diqqət və qayğı göstərilir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın aprel döyüşlərindən sonra yaralılarla, şəhid ailələrinin üzvləri ilə görüşləri bütün cəmiyyət üçün gözəl nümunədir. Erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlığa görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupunun təltif edilməsi onların adlarının əbədiləşdirilməsi yolunda atılmış mühüm addımlardandır. Şəhid ailələri, müharibə əlilləri və iştirakçıları üçün dünyada qəbul olunmuş bütün imtiyazlar Azərbaycanda daha yüksək səviyyədə tətbiq olunur.

"Cənubi Qafqazda ən güclü olan Azərbaycan Ordusu qarşısında duran bütün vəzifələri layiqincə yerinə yetirməyə qadirdir. Əldə edilən nailiyyətlərə və qələbələrə hamı kimi veteranlarımız da sevinirlər. Bu, Ordumuzun, eyni zamanda, xalqımızın və veteranların qələbəsidir. Gənclərimiz arasında vətənpərvərlik hissinin gücləndirilməsi işində daim fəal iştirak edən veteranlarımız həmişə ordumuzun yanındadır. Biz veteranlar qələbəmizə, işğal altındakı bütün torpaqlarımıza tezliklə qayıdacağımıza inanırıq, - deyə ehtiyatda olan polkovnik bildirib.

AZƏRTAC

# 31 Mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbir

30 mart 2017-cı il tarixdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında 31 Mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbir başlamazdan əvvəl Soyqırım qurbanlarının və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə müharibə, əmək və Silahlı Qüvvələr veteranları, Respublika Veteranlar Təşkilatı Mərkəzi Aparatının əməkdaşları iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov açaraq demişdir: "1918-ci ilin 30 mart - 3 aprel tarixləri arasında Bakı şəhəri və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı qırğınlar törətmişlər. Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində 12 mindən çox azərbaycanlı qətlə yetirilmiş, minlərlə insan itkin düşmüşdür.

Bu faciənin təməli 2 əsr öncədən başlamışdı. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 19-cu əsrin əvvəllərindən etibarən əvvəl çar Rusiyası, sonra Sovet İmperiyasının dəstəyi ilə azərbaycanlıları min illərlə yaşadıqları dədə-baba torpaqlarından zor gücünə kütləvi surətdə çıxararaq Azərbaycan ərazilərində özlərinə dövlət qurmuşlar. Nəhayət 1948-1953-cü və 1988-ci deportasiyasından sonra qədim türk yurdlarında monoetnik Ermənistan yaradılmışdır.

Ermənilər tərəfindən Azərbaycanlı soyqırımları xüsuən 20 əsrdə daha böyük vüsət almışdır. 1905-1907-ci illərdə Bakıda, Azərbaycanın digər ərazilərində və indi Ermənistan adlanan torpaqlarda azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirimişdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdi.

Bakıda hakimiyyətini ələ keçirən bolşevik Stepan Şaumyanın bolşeviklərlə erməni millətçilərinin əməkdaşlığına nail olması ilə hələ 1918-ci ilin yanvarında həmin qırğınlara cəhd edilmiş, lakin Nəriman Nərimanov və başqalarının səyi nəticəsində onların yanvar planı baş tutmamışdı. 1918-ci ilin mart ayından ordudan tərxis olunan silahlı erməni dəstələri Azərbaycanın müxtəlif yerlərində talanlara başlamışdılar. Təxminən 7 min erməni əsgəri və 70%-i ermənilərdən ibarət olan "Qırmızı Qvardiya" adı altında yaradılan 10-12 minlik ordu müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. Bolşevik-erməni koalisiyası cəbhə boyu hücuma keçmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası 1918-ci il iyulun 15-də mart hadisələrini təhqiqi məqsədilə xüsusi Fövqəladə İstintaq Komissiyası yaratmışdır. Komissiyanın hesabatında qanlı hadisələr zamanı ölənlərin sayının 20 mindən çox olduğu bildirilirdi. Həmin vaxt həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün həmçinin Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdı.

1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və iki əsrə yaxın davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi.

Nəhayət ermənilərin Azərbaycanlılara qarşı soyqırımı törətməsinə Ulu öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə siyasi qiymət verildi. Həmin tarixdə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir".

Tədbirdə 31 mart hadisələri ilə yanaşı həmçinin ermənilərin xalqımıza qarşı 20-ci əsrdə törətdiyi sonuncu Xocalı soyqırımı barədə də danışılmış, ermənilərin Dağlıq Qarabağda başladığı qəsbkarlıq nəticəsində bir milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin salınması, ərazimizin 20 faizinin işğal olunması və bu günədək işğal altında saxlanıldığı qeyd edilmişdir.

# 232 №-Lİ TAM ORTA MƏKTƏBDƏ XOCALI SOYQIRIMINA HƏSR OLUNMUŞ TƏDBİR

Amansızlığına, qəddarlığına görə bəşər tarixinə qanlı iz salmış, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş Xocalı qətliamından bizi 25 il zaman məsafəsi ayırır. Suraxanı rayon Veteranlar Təşkilatı 232 saylı tam orta məktəblə birgə Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədar faciə qurbanlarının xatirəsinə həsr olunmuş anım tədbiri keçirilmişdir.

Tədbirdə Respublika Veteranlar Təşkilatından Gənclərin hərbi-vətənpərvərlik bölməsinin müdiri e.o polkovnik Adil Haqverdiyev, Suraxanı Rayon Veteranlar Təşkilatının sədri II qrup müharibə əlili Eldar Rüstəmov, Suraxanı rayon İcra hakimiyyətinin ictimai - siyasi və humanitar şöbəsinin müdiri Bərxudar Bərxudarov, məktəbin direktoru Məhluqə Əzizova, direktor müavini Səfa Orucəliyev, Azərbaycan dili müəllimləri Zalova Kəminə, Məmmədvəliyev Eldar, UBR Mədinə İsgəndərova, veteranlar Müseyib Bağırov, Tofiq Hüseynov, Məmmədağa Nəsirov, şəhid Dilavər Məmmədzadənin qardaşı Yavər Məmmədzadə, valideynlər iştirak etmişdirlər.

Tədbir Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin və Vətən uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Giriş sözü ilə çıxış edən məktəbin direktoru Məhluqə Əzizova Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin nəzərinə çatdırılması üçün görülməsi vacib olan işlər barədə ətraflı məlumat vermişdir. O qeyd etdi ki, bu işlərin nəticəsidir ki, hər il faciənin ildönümü istər Respublikamızda, istərsə də onun hüdudlarından kənarlarda geniş qeyd olunur, faciə qurbanlarının xatirəsi yad edilir, dünya ictimaiyyətinə ermənilərin əsl iç üzü göstərilir.



Tədbirdə A.Haqverdiyev məktəblilərə keçdiyi döyüş yolundan bəhs etdi və onlara vətənpərvər olmağı, vətəni göz bəbəyi kimi qorumağı tövsiyə etdi.

Suraxanı Rayon İcra Hakimiyyətinin nümayəndəsi Bərxudar Bərxudarov Respublika Veteranlar Təşkilatının məktəblərdə keçirdiyi bu cür tədbirləri təqdirə layiq olmasını vurğuladı və məhz veteranların məktəblilərlə bu cür görüşlərinin vətənpərvərlik ruhunun yüksəldilməsinə tövhə olduğunu bildirdi. Sonra məktəblilər çıxışları ilə anım tədbirini davam etdirdilər.

Şagirdlərdən 11 a sinif şagirdi Məmmədov Samir, 8a sinif şagirdi Bayramova Gülüstan, 3b sinif şagirdi Məmmədli Selcan, 11b sinif şagirdi Doxolov Səbuhi tədbirdə aktiv iştirak etdilər.

***Eldar Rüstəmov,***
***Suraxanı Rayon Veteranlar Təşkilatının sədri***

# Azərbaycan Respublikası DİN-in Veteranlar Şurasının 2016-cı il ərzində fəaliyyəti

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş və "Veteranlar haqqında" Qanunla təsbit edilmiş prinsipləri rəhbər tutan Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurası 2016-cı il ərzində də öz işini ölkə veteranları ilə bağlı, habelə daxili işlər orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən aparılan siyasətə uyğun şəkildə davam etdirmiş, DİN-in aidiyyəti qərar, əmr və göstərişlərinə uyğun olaraq, bir sıra səmərəli tədbirlər həyata keçirmişdir.

Belə ki, AR DİN-in müvafiq göstərişinə və Qərarına uyğun olaraq daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində veteranların təcrübəsindən, bilik və bacarıqlarından daha geniş və səmərəli istifadə olunmuş, onlar ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin profilaktikası və açılması, cinayətkarların axtarışı tədbirlərinin planlaşdırılması, şəxsi heyətin təlim-tərbiyəsi tədbirlərinin təşkili, həmçinin əhali arasında hüquqi biliklərin təbliği və digər işlərə yaxından cəlb edilmiş, eyni zamanda, veteran şuralarının aidiyyəti xidmət sahəsi əməkdaşları ilə qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsinə xüsusi önəm verilmişdir.

2016-cı il ərzində respublika daxili işlər orqanları veteranlarının 2081 dəfə təhsil müəssisələrində (orta məktəblərdə, liseylərdə), müxtəlif mərasimlərdə, kütləvi tədbirlərdə əhali qarşısında çıxışları təmin edilmişdir.

İstefada olan əməkdaşların yubileylərinin qeyd edilməsi, veteran hərəkatında iştirakı nəzərə alınaraq onların əməyinin qiymətləndirilməsi məsələləri dair diqqət mərkəzində saxlanılmışdır. Belə ki, uzun müddət daxili işlər orqanlarında məsul vəzifələrdə qüsursuz xidmət etmiş, qanunçuluğun və hüquq qaydalarının təmin olunmasında çoxillik səmərəli fəaliyyəti və gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında layiqli əməyi olan istefada olan III dərəcəli dövlət ədliyyə müşaviri Rəfiyev Akif Bəşir oğlu anadan olmasının 80 illiyi münasibətilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Həmçinin, istefada olan polis mayoru Əhədov Əsəd Ağaxan oğlunun daxili işlər orqanlarında səmərəli fəaliyyəti, polis orqanlarının ictimai həyatında yaxından iştirakı və gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında əməyi nəzərə alınmış və o da anadan olmasının 80 illiyi münasibətilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Daxili işlər orqanlarında uzun müddət qüsursuz xidmətlərini, cinayətkarlığa qarşı mübarizədə və hüquq qaydalarının təmin olunmasında çoxillik səmərəli fəaliyyətini, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında əməyini nəzərə alaraq istefada olan polis polkovniki İlyasov Müseyib İlyas oğlu anadan olmasının 90 illiyi münasibətilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Fəxri Fərmanı və "Azərbaycan polisinin 95 illiyi (1918-2013)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmişdir.

İstefada olan polis mayoru Əmirov Aydın Balasan oğlunun gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, onlar arasında cinayətin profilaktikasınm aparılmasında və daxili işlər orqanlarının veteranlar təşkilatında xüsusi xidmətlərini nəzərə alaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

Daxili işlər orqanlarının rəhbər vəzifələrində uzun müddət qüsursuz və səmərəli fəaliyyətini, polis orqanlarının ictimai həyatında daim fəal iştirakını, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında xüsusi xidmətlərini nəzərə alaraq, istefada olan polis general-mayoru Məmmədov Kamil Əli oğlu anadan olmasınn 85 illiyi münasibətilə "Azərbaycan polisinin 95 illiyi (1918-2013)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmişdir.

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, veteranlar təşkilatında xüsusi xidmətlərini nəzərə alaraq, Mingəçevir ŞRPŞ-si Veteranlar Şurasının sədri Bayramov Adil Tofiq oğlu, Ucar RPŞ-nin Veteranlar Şurasının sədri Mirzəliyev Rahib Səlim oğlu, Ağcabədi RPŞ-nin Veteranlar Şurasının sədri Feyzullayev Arif Seyfulla oğlu, Qəbələ RPŞ-nin Veteranlar Şurasının sədri Vəliyev Nadir Babulla oğlu və Neftçala RPŞ-nin Veteranlar Şurasının sədri Həziyev Məmmədağa Balaş oğlu Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri tərəfindən Fəxri Fərmanla mükafatlandırılmışlar.

İctimai asayişin mühafizəsi, cinayətkarlığın profilaktikası, cinayət hadisələrinin qarşısının alınması və açılmasında yaxından köməklikləri, habelə gənc nəslin təlim-tərbiyəsində, milli ruhda formalaşmasında fəal iştirakları nəzərə alınaraq, 2015-ci ilin yekunları üzrə 14 nəfər, 2016-cı ilin yekunları üzrə isə 15 nəfər polis veteranı mükafatlandırılmışdır.

1941 -1945-ci illər müharibəsində faşizm üzərində əldə edilmiş qələbənin 71-ci ildönümünün qeyd edilməsi barədə Daxili İşlər Nazirliyinin göstərişinə əsasən DİN-in Daxili Qoşunlarının hərbi qulluqçuları ilə, xüsusən gənc əsgərlərlə Böyük Vətən müharibəsi iştirakçılarının görüşləri təşkil olunmuşdur.

Uzun illər daxili işlər orqanlarında qüsursuz xidmətlərini, gənc əməkdaşların milli vətənpərvər ruhda səfərbər olunmasında, onlara Azərbaycan dövlətçiliyinə, vətənə sədaqət hisslərinin aşılanmasında iştiraklarını nəzərə alaraq, Qələbənin 71-ci ildönümü münasibətilə 6 nəfər müharibə veteranı mükafatlandırılmışdır.

Aprelin 27-dən 29-dək Minskdə keçirilən, 1941 -1945-ci illər müharibəsində qazanılmış qələbəyə həsr olunmuş forumda Daxili işlər Nazirliyinn Veteranlar Şurasının üzvü, istefada olan polis polkovniki Georgi Zapletin iştirak etmişdir.

Bu sırada DİN-in Veteranlar Şurasınnın üzvü, istefada olan polis polkovniki Ramiz Cahangirovun 2016-cı ilin 21-23 sentyabr tarixlərində Rusiya Federasiyasının Kaluqa vilayətinin Rusaçi rayonunda keçirilmiş daxili işlər orqanları cinayət axtarışı xidmətlərinin veteranlar təşkilatları sədrlərinin 4-cü beynəlxalq seminarında iştirakı təmin edilmişdir.

Həmin seminara həmçinin Rusiya Federasiyasının 43 regionundan 49, habelə Kaluqa vilayətindən 135 veteranla bərabər, Belarus, Qazaxıstan, Qırğızıstan respublikalarının Daxili İşlər Nazirliklərinin veteranlar təşkilatlarının rəhbərləri də dəvət olunmuşdur.

Həmçinin AR DİN-in 2016-cı il üçün Əsas Təşkilati Tədbirlər Planının 5.4-cü bəndinin icrası ilə əlaqədar olaraq, DİN-in Şəxsi Heyətlə İş İdarəsi ilə birlikdə Hacıqabul, Şirvan, Masallı, Lənkəran, Quba, Xaçmaz, Beyləqan, Salyan, Cəlilabad, Saatlı, Sabirabad, Siyəzən, Şabran, Ağcabədi, İmişli, Sumqayıt ŞRPİŞ-ləri üzrə veteranlarla işin aparılması vəziyyəti öyrənilmiş, bu sahədə aidiyyəti əməkdaşlara zəruri əməli və metodiki köməklik göstərilmişdir.

2016-cı il ərzində daxili işlər orqanları veteranlarının yaxından iştirakı ilə 4056 cinayət işinin açılması təmin edilmişdir.

Dekabrın 16-da Bakı şəhər BPİ Dövlət Yol Polis idarəsinin Veteranlar Şurasının təşkilatçılığı ilə həmin orqanda ilin yekunlarına, aidiyyəti tələb və göstərişlərin icrası vəziyyətinə qarşıda duran vəzifələrə, habelə 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramlarına həsr olunmuş tədbir keçirilmiş, orada Bakı şəhər BPİ-nin əməkdaşları, DİN-in və Bakı şəhər BPİ-nin Veteranlar Şuralarının üzvləri iştirak etmişdirlər.

Bundan əlavə, daxili işlər orqanları veteranların sosial-məişət problemlərinə diqqət və qayğı ilə yanaşılmış, onların DİN-in A.Heydərov adına hospitalında, uyğun müalicə-profilaktika müəssisələrində, o cümlədən 25 nəfər veteranın "Xəzri" İSM-də, Nabran, Naftalan və Bilgəhdə yerləşən sanatoriyalarda istirahətlərinin təşkili üçün DİN Veteranlar Şurası üzvləri tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası DİN Veteranlar Şurasının qarşısında duran vəzifələrin yerinə yetirilməsi istiqamətində aparılan tədbirlər bu gün də məqsədyönlü şəkildə davam etdirilir və veteranlarımız onlara göstərilən etimadı doğrultmağa çalışırlar.



***Fərhad Süleymanov***
***DİN Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki***




# Böyük Vətən Müharibəsi iştirakçısı İslam Həsənov

Böyük Vətən Müharibəsi iştirakçısı Həsənov İslam Həsənbala oğlu 1924-cü ildə anadan olmuşdur.

O, müharibənin od-alovunu öz gözləri ilə görmüş, Mozdokdan döyüş yoluna başlamışdır. Xüsusilə Taqanroq cəbhəsində şücaətlər göstərmişdir. Habelə Ukrayna, Polşa, Çexoslovakiya, Macarıstanda döyüşlərdə iştirak etmişdir.

Macarıstanda döyüşlərin birində yaralanmış, hospitalda müalicə almış lakin ağır yaralanmasına baxmayaraq yenidən döyüşlərə qatılmış, hərbi xidmətini davam etdirmişdir.

Müharibədən sonra vətənə qayıtmış Ağdaş kənd Təsərrüfatı Texnikumunu bitirmiş və uzun müddət Ağdaş Barama Toxumu zavodunda aqronom işləmişdir.

Hazırda veteranımız yataq xəstəsidir. Allahdan İslam Həsənova şəfa diləyirik.

**Şah Səlimov,**
**Ağdaş Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri**

# Dünyanı dağıtmaq nə qədər asanmış...

*Əbdül Şərifzadə İsmayıllı rayonunun Müdrüsə kəndində anadan olmuşdur. Sovet ordusu sıralarında xidmət etmişdir. Əbdül kişi sözün əsil mənasında Uralda cəhənnəmi gözləri ilə görmüş Sovet əsgərlərindən biri olmuşdur. Onunla birlikdə həmyerlisi Şıxəli, Lahıcdan olan Qulu və Bünyat da o hadisələrdə iştirak etmişlər.*

İmperiya dövründə çox şey xalqdan gizlədilirdi. Ən dəhşətli hadisələr tamamilə məxfi qrifi altında bağlı arxivlərin qaranlıq küncünə göndərilirdi. İlk növbədə ona görə ki, bu fəlakətlər çox vaxt Moskvada oturanların əli ilə, birbaşa göstərişləri ilə həyata keçirilirdi. Atom silahının ilk sınağı da belə hadisələrdən idi. O vaxt bu hadisə barədə SİTA-nın kiçik bir məlumatı getdi: Son günlər Sovet İttifaqında elmi-tədqiqat işləri planına uyğun olaraq atom silahı növlərindən birinin sınağı keçirilmişdir. Məqsəd atom partlayışının öyrənilməsidir. Bəlkə də o vaxtlar ABŞ-la, xüsusən hərbi gücünü artırmaq yarışına girən bir ölkənin vətəndaşları üçün bu sevincli xəbər idi. Çünki bu dəhşətli partlayışın nəticələrindən xəbərsiz idi xalq.

O vaxtdan illər keçir. Bir neçə il əvvəl isə həmin materialın üstündən tamamilə məxfi qrifi götürülüb. 1990-cı ildə yaradılan komissiya isə müharibə veteranlarına verilən imtiyazların bu sınaqda iştirak edən əsgər və zabitlərə şamil edilməsi barədə qərar çıxarılıb. Artıq bu vaxt həmin sınağın iştirakçılarının çoxu həyatda yox idi. Aldıqları şüa xəstəliyindən dünyalarını vaxtsız dəyişmişdilər.

Bu partlayışın törətdiyi ağlagəlməz fəlakət haqqında az-çox öyrənmək üçün həmin sınaq zamanı qoşun hissələri tərkibində oraya göndərilmiş azərbaycanlılardan biri istefada olan polkovnik-leytenant Əbdül Şərifovla görüşdük.

Ə.Şərifov maraqlı həmsöhbətdir. 1930-cu ildə anadan olub. 1951-ci ildə hərbi xidmətə çağırılıb. Brestdə xidmət edib. Bir illik səhra təlimatçısı kursunu bitirib, əvvəlki hərbi hissədə feldşer kimi xidmətini davam etdirib. Tərxis olunandan sonra Bakıda 2 nömrəli Tibb Texnikumunu bitirib. Daxili işlər orqanlarında müxtəlif vəzifədə çalışıb. Bakıda xüsusi milis məktəbini, Rostovdakı Polis Akademiyasını bitirib.

- Əbdül müəllim, son illər atom silahının ilk sınağı barədə az-çox yazıblar. Ancaq nədənsə, bu fəlakəti tam təsvir etməyiblər.

- Çünki onu təsvir etməyə, baş verdiyi kimi danışmağa sözün gücü çatmır. Elə bir ifadə tapmıram deyim ki, bu necə oldu.

- Onda xatirələri çözələyək. Bəlkə, nəsə alındı.

- Belarusda, Brest şəhərində qulluq edirdim. 1954-cü il aprel ayının əvvəlində gecə həyəcan siqnalı verildi. Nəsə hiss olunurdu ki, bu həmişəki, adi həyəcan siqnalı deyil. Zabitlər də heç nə bilmədiyini deyirdi. Belə başa düşdük ki, yeni müharibə başlayıb. Çünki dedilər, Belarus dairəsində olan bütün qoşunlar döyüş hazırlığına gətirilib. Marşal Timoşenko hər şeyi özü yoxlayırdı. Hissələr tam komplektləşdirildi. O vaxt üçün bütün müasir döyüş texnikaları eşelonlara yükləndi. Yola düşdük. Moskvaya çatanda saysız-hesabsız eşelonları görən camaat vahiməyə düşmüşdü. Hamı elə bilirdi müharibə başlayıb. Heç kimə cavab verə bilmirdik. Çünki özümüzün heç nədən xəbəri yox idi. Nəhayət, Orenburq vilayətinin Totski rayonuna çatdıq. Totsk təlim mərkəzi son dərəcə böyükdür. Ucu bucağı bilinmirdi. Biz gələnə qədər isə yüzdən çox kənd köçürülmüşdü. Bütün yaşayış məntəqələri boş idi. Yalnız burada bizə dedilər ki, atom silahının sınağı keçiriləcək. Bizi də onun üçün buraya təlim keçməyə gətiriblər.

- Qoşunlar necə yerləşdirilmişdi və siz nə etməliydiniz?

- Bura Uralın cənub tərəfi olduğundan yayı isti olur. Ancaq həmin yay dəhşət isti oldu. Gündüz havanın temperaturu 50-55 dərəcəyə qalxırdı. Buna baxmayaraq, hər gecə həyəcan siqnalı ilə bizi qaldırırdılar. O biri gün qaranlıq düşənə qədər döyüş təlimləri keçirdik. Yorğunluqdan və istidən imkan düşən kimi əsgərlər özlərini Kamo çayına vururdular. Yay girəndə qarın yatalağı başladı. Ona görə də nəzarət ciddiləşdi. Yeməkxanaya girəndə bütün əsgər və zabitlər xlorlu su ilə əllərini yuyurdular. Çox çətin idi. Düz altı ay hər günümüz belə keçdi. Üç müdafiə xətti vardı. Bir-birindən 2-2,5 kilometr məsafədə yerləşirdi. Biz ikinci xətdə idik. Bütün texnika yeraltı sığınacaqda yerləşdirilmişdi. Çox vaxt çadırlarda deyil, elə yeraltı sığınacaqda qalırdıq. Çünki sınaq zamanı burda olmalıydıq. Nə etmək lazım olduğunu öyrənirdik. Sığınacaqlar ən azı 1,5 metr qalınlığında torpaqla örtülmüşdü.

- Bəs bu sınağın keçirilməsinə kimlər rəhbərlik edirdi? Onlar harada yerləşmişdilər.

- Az qala bütün sovet rəhbərliyi ora gəlirdi. Bizim batalyonda sosialist ölkələrinin rəhbərləri, müdafiə nazirləri oldu. Yeni silahların döyüşə hazırlığına baxdılar. Bütün işlərə isə marşal G. Jukov rəhbərlik edirdi. Bizim batalyon yerləşən ərazidə dağ vardı. Qayalıq idi. Həmin qayaları bizə yardırdılar. Dağın içində sığınacaq düzəltdik. Qərargah orada yerləşirdi. G. Jukov da orada olurdu.

- Siz bilirdinizmi, partlayışın gətirəcəyi fəlakəti?

- Çox şeyi deyirdilər. Ona görə də bütün tədbirlər görülürdü. Ancaq elə dəhşətli olacağını ağlımıza da gətirmirdik. Bizə şüadan və zəhərlənmədən müdafiə üçün bütün geyimlər verilmişdi. Hər gün təlimlər keçirilmişdi. Heç kim səhv edə bilməzdi. Çünki adi səhv yerindəcə ölüm demək idi.

- Nəhayət, sınaq günü yetişdi.

- Gecə həyəcan siqnalı ilə qalxdıq. Yeraltı sığınacağa getdik. Hər kəs yerini tutub əmr gözləyirdi. Hiss olunurdu ki, zabitlər də həyəcan keçirirlər. Heç kim bilmirdi ki, bir azdan nə olacaq. Bircə onu bilirdik ki, partlayış havada olacaq. Sonra biz öz işimizi bilirdik. Partlayışdan sonra əmr veriləcək, biz hücuma keçəcəyik, düşməni məhv edəcəyik. Təxminən hücum istiqamətimiz məlum idi. Düşmənin harada yerləşdiyini bilirdik. Onu da deyim ki, silahlar təlim üçün deyildi, döyüş silahları idi.

Haşiyə: 1954-cü il, sentyabrın 14-ü. Saat 9:20-dir. Atom bombası yüklənmiş təyyarə təyin olunmuş əraziyə daxil olur. G.Jukov əmr verir: Partlayışı keçirin! Və sonra bir anlıq elə bil dünya dağılır.

Yer yırğalanırdı. Elə bil yüngül bir qayığı güclü dalğalar atıb-tuturdu. Sığınacaqda belə ayaq üstə durmaq olmurdu. Qulaqlarımızda nə qədər səsboğucu olsa da gurultudan key kimiydik. Bir-iki dəqiqə belə keçdi. Heç kimin yaşamağa umidi yox idi. Elə bildik dünyanın sonudur. Hərə öz başının hayında idi. Sonra hər şey sakitləşdi. Zabitlər işlərini qaydaya salırdılar. Axı bir azdan əmr almalı idilər. Ancaq heç kim inanmırdı ki, yerin üstündə kimsə salamat qala bilər. Nəhayət, düz 45 dəqiqədən sonra irəli! əmri verildi. Döyüş başladı. Təxminən 2 kilometrdən sonra bizi dayandırdılar. Məlum oldu ki, mühafizə geyimlərimiz irəlidəki, zəhərlənmənin və şüalanmanın qarşısını almağa qadir deyil. Sonra geri Brestə qayıtdıq.

-Hücum əmri verildi və siz yerin üstünə çıxdınız. Nə gördünüz?

-Demə sınaq zonasına çoxlu heyvan gətiriblərmiş. Dəvədən



belə. Açıqda hərbi texnika da çox idi. Heyvanlar kömürə dönmüşdülər. Topların lülələri əriyib əyilmişdi. Tankların da çox yeri ərimişdi. Nazik dəmirlər isə tamam əriyib tökülmüşdü. Hər yan yanmışdı. Yer qapqara idi. Ucu-bucağı bilinməyən meşələr yox idi. Kamo çayının suyu buxarlanırdı. Deyirlər qaynayırmış. Heç yerdə həyat əlaməti yox idi. Hər yerdə kömürlənmiş heyvan cəsədlərinə rast gəlirdik.

-İnsan tələfatı necə, oldumu?

-Mən görmədim. Bizim batalyondan üç nəfər tankın altına düşdü. Biz qayıtdıq. Zabitlər isə bir həftə orda qaldılar. On minlərlə əsgər iştirak etdi orda. Hamısından izahat alındı ki, bu sınaq haqqında heç harda bir kəlmə də danışmayın. Deyirdilər, yadınızdan çıxarın ki, siz Uralda olmusunuz. Nə isə. Onda heç nə hiss etmirdik. Ancaq sonralar xəstəliklər başladı. Baş ağrıları, burundan qan açılma, daha nələr...

-Şüalandığınız üçün sizə hansısa bir güzəşt, ya nə isə olmadı?

-Qətiyyən. Həkimə gedirdik. Ancaq deyə bilmirdik ki, biz filan yerdə olmuşuq, atom silahının sınağında iştirak etmişik, şüalanmışıq. Həmin əsgərlər elə o vaxtdan hökumət tərəfindən unuduldu. Yavaş-yavaş qırıldılar. Azərbaycanlılar da çox idi. Bildiyimə görə məndən başqa sağ qalan daha iki nəfər var. Bizim aldığımız dozanı təyin etmədilər. Guya heç orda olmamışdıq. Hər şeyi belə tapşırmışdılar.

P.S. 1954-cü il sentyabr. Ural Xirosiması kimi tarixdə qalan bu partlayışın dəhşətləri hələ ki, bütün açıqlığı ilə xalqa çatdırılmayıb. Onun ağrılarını isə hələ də çəkənlər var. Əbdül müəllim kimi. Yaşlarının bu ahıl çağında onlar daha çox qayğı və diqqətə möhtacdırlar. Uzun illər susmuş bu insanlar həm də canlı tarixdirlər, atom silahının ilk sınağının şahidləri.

***Vahid İmanov***

# HÜQUQİ MƏSLƏHƏTLƏR

## VƏRƏSƏLİK HAQQINDA

Azərbaycanda vərəsəlik hüququ müxtəlif hüquqi normalarla tənzimlənir.

Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin 5-ci bəndində əks etdirilən "Dövlət vərəsəlik hüququna təminat verir" haqqındakı göstərişə müvafiq olaraq Mülki Məcəllədə vərəsəlik hüququnu tənzimləyən 193 maddə nəzərdə tutulmuşdur.

Respublika əhalisinin Ümumilli Liderimiz Heydər Əliyevin təbirincə desək qızıl fondunu təşkil edən veteranlarımızın vərəsəlik hüququ barədə daha aydın təsəvvürlərinin olması və ondan daha səmərəli faydalanmaları üçün hesab edirəm ki, vərəsəlik hüququ haqqında bilgiləri onlara sual-cavab formasında çatdırmaq daha yaxşı olar.

Belə olan halda ilk sualımız:

Sual: Vərəsəlik nədir?

Cavab: Vərəsəlik dedikdə, ölmüş və ya məhkəmə tərəfindən ölmüş elan edilmiş şəxsin əmlakının qanun üzrə və ya vəsiyyət üzrə, yaxud hər iki əsasla başqa şəxslərə (vərəsələrə) keçməsi anlaşılır.

Sual: Kimlər vərəsə ola bilər?

Cavab: Qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilər.

Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq ola bilərlər.

Sual: Qanun üzrə vərəsəlik nədir?

Cavab: Vərəsəlik üzrə vəsiyyətnamə olmadıqda, yəni vəfat etmiş şəxs ona məxsus olan əmlakı üzrə vəsiyyəti rəsmiləşdirməmişsə bu cür vərəsəlik qanun üzrə vərəsəlik adlanır.

Sual: Vəsiyyət üzrə vərəsəlik nədir?

Cavab: Vətəndaşın ölüm ehtimalı ilə əlaqədar, əmlakı haqqında qanunla müəyyən edilmiş formada verdiyi sərəncam vəsiyyət adlanır.

Sual: Hüquqi şəxs vərəsə ola bilərmi?

Cavab: Hüquqi şəxs yalnız vəsiyyət üzrə vərəsə ola bilərlər, bu şərtlə ki, həmin hüquqi şəxs vərəsəlik açılan vaxtadək qanunda nəzərdə tutulmuş qaydada təşkil edilmiş olsun, əks halda o vərəsə ola bilməz.

Sual: Bəs nigahdan kənar doğulan uşaqlar atanın vərəsəsi ola bilərmi?

Cavab: Nigahdan kənar uşaq o halda atasının vərəsəsi sayılır ki, atalıq qanunda nəzərdə tutulmuş qaydada müəyyənləşdirilmiş olsun. Əgər həmin uşaq atasından əvvəl ölərsə, onun uşaqları atalarına çatası mirasdan pay tələb edə bilərlər.

Sual: Bəs kimlər vərəsə ola bilməzlər?

Cavab: Ləyaqətsiz vərəsə nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə ola bilməz, bu şərtlə ki, həmin hallar məhkəmə tərəfindən təsdiq edilsin.

Sual: Onda ləyaqətsiz vərəsə kim hesab olunur?

Cavab: Miras qoyanın son iradəsini həyata keçirməsinə qəsdən mane törətmiş və bununla da özünün və ya özünə yaxın şəxslərin vərəsəliyə çağırılmasına və ya miras paylarının artırılmasına kömək göstərmiş, yaxud vəsiyyət edənin vəsiyyətnamədə ifadə edilmiş son iradəsinə qarşı qəsdən cinayət və ya digər əxlaqsız hərəkətlər törətmiş şəxs ləyaqətsiz vərəsə hesab edilir.

Sual: Bəs daha kimlər vərəsə ola bilməzlər?

Cavab: Valideynlik hüququndan məhrum edilmiş və mirasın açıldığı günədək bu hüquqları bərpa edilməmiş valideynlər uşaqlarının qanun üzrə vərəsələri ola bilməzlər.

Miras qoyanın saxlanması üzrə öhdələrinə qoyulmuş vəzifələrdən qəti surətdə boyun qaçıran şəxslər də qanun üzrə vərəsə ola bilməzlər, bu şərtlə ki, bu hal məhkəmə tərəfindən təsdiq edilsin.

Sual: Miras əmlak nədir?

Cavab: Miras əmlak miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusudur.

Mirasa ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölünməsi mümkün olmadıqda isə əmlakın dəyəri daxildir.

Sual: Mirasa daxil olmayan əmlaklar hansılardır?

Cavab: Ailə dəftər-kitabları, ailə xronikaları, xatirə və digər ayin predmetləri və qəbirlər mirasa daxil deyildir və vərəsələr arasında bölüşdürülmür. Bu predmetlər bərqərar olmuş adətə görə vərəsənin mülkiyyətinə verilir. Ancaq miras qoyanın şəxsiyyətinə, ailəsinə və ya bütün mirasa aid sənədlər ümumi əmlak kimi qalır.

Sual: Mirasın açılması nə vaxt baş verir?

Cavab: Miras fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır.

Sual: Mirasın açıldığı vaxt nə vaxt hesab edilir?

Cavab: Miras qoyanın öldüyü gün və ya fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı vaxt hesab edilir.

Sual: Qanun üzrə vərəsə kimlərdir?

Cavab: Qanun üzrə vərələsikdə növbəlilik prinsipi vardır və vərəsəlik məsələlərinin həllində buna mütləq əməl edilməlidir.

Ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, ölən ərdirsə onun arvadı, ölən arvaddırsa onun əri, valideynlər birinci növbə vərəsədirlər.

İkinci növbə vərəsələr ölənin bacıları və qardaşlarıdır. Miras qoyanın bacısı uşaqları və qardaşı uşaqları və onların uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsəsi olacaq valideynləri ölmüş olsun.

Üçüncü növbə vərəsələr həm ana tərəfdən, həm də ata tərəfdən nənə və baba, nənənin anası və atası, babanın anası və atası o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt nənə və baba sağ olmasın.

Dördüncü növbə vərəsələr ölənin xalaları və bibiləri, dayıları və əmiləri hesab olunur.

Beşinci növbə vərəsələr ölənin xalası, bibisi, dayısı və əmisinin uşaqları, onlar sağ olmadıqda isə onların uşaqları vərəsə sayılırlar.

Sual: Vəsiyyət edən vərəsəni vəsiyyət üzrə vərəsəlik hüququndan məhrum edə bilərmi?

Cavab: Bəli, vəsiyyət edən qanun üzrə vərəsələrdən birini, bir neçəsini və ya hamısını vəsiyyətnamə ilə mirasdan məhrum edə bilər və bunu əsaslandırmağa borclu deyildir.

Sual: Vərəsəlik barədə mübahisənin həll edilməsində mirasın qəbul edilməsi vacib şərtdir, yoxsa yox?

Cavab: Vərəsəlik mübahisəsinin həllində ən vacib məsələ mirasın qəbul edilib-edilməməsidir. Belə ki, istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə mütləq mirası qəbul etmiş olmalıdır. Əks təqdirdə mübahisədən söhbət gedə bilməz.

Sual: Bəs mirasın qəbulu hansı qaydada həyata keçirilir?

Cavab: Vərəsə mirasın açıldığı yer üzrə notariat kontoruna mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktiki başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır. Hətta vərəsə mirasın bir hissəsinə sahiblik etməyə faktiki başladıqda onu qəbul etmiş hesab edilir.

